*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
***ISSN: 2148-2292***
***10 (2) 2023***
https://doi.org/ 10.46868/atdd.2023.289

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received : 02.02.2023***
***Kabul tarihi |Accepted: 19.03 2023***
***Yayın tarihi |Published : 25.04.2023***

**Rəna Baxışova**
https://orcid.org/0000-0003-0105-2163
*Senior researcher of the "Theory of history, historiography and source studies department" of the Institute of History named after A. Bakikhanov, Azerbaijan National Academy of Sciences, Azerbaijan, rena-bakhishova@mail.ru*

***Atıf Künyesi | Citation Info***
Baxışova, R. (2023). Şimali Azərbaycanın Qarabağ Bölgəsinin Mədəniyyətində Erməni Saxtakarlığı. *Akademik Tarih ve Düşünce Dergisi*, *10* (2), 323-344.

# Şimali Azərbaycanın Qarabağ Bölgəsinin Mədəniyyətində Erməni Saxtakarlığı

***Xülasə***

*XIX əsrin əvvələrində Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğalı, bu ərazilərə ermənilərin köçürülməsi, rus-erməni "həmrəyliyi" iki əsrdən çoxdur ki, xalqımızın qarşısına ciddi problemlər qoyur. Çarizm regionda ruslaşdırma və xristianlaşdırma siyasətinin davamı olaraq bu əraziyə köçürülmüş ermənilərin təhsil almaları üçün böyük vəsait ayırmış və əraziyə nəzarət edə bilmək üçün onları idarəçilik orqanlarında yerləşdirmişdilər. Bundan ruhlanan ermənilərin müxtəlif zamanlarda Azərbaycan torpaqlarına, o cümlədən Qarabağ bölgəsinə qarşı əsassız ərazi iddiaları nəticəsində yalnız Azərbaycan türkləri deyil, mədəniyyəti də erməni təcavüzünün və saxtakarlığının qurbanı olmuş və olmaqda davam edir. S.N.Zelinski, A.Y.Xan-Aqov və digər erməni tədqiqatçıları ermənilərin bu əraziyə gəlmə olduqlarının yazsalar da ermənilər Azərbaycan türklərinin əsrlər boyu yaratdıqları memarlıq abidələrinin saxtalaşdırılması prosesinə başladılar. Köçürülmədən sonra Azərbaycan muğamlarını erməni musiqisi, Azərbaycan xalçalarını "erməni xalçası" adıyla dünya ictimaiyyətinə təqdim edərək onları aldadırlar. Mədəni irsimizi mənimsəyərək saxta erməni tarixi yaradan ermənilər mifik "erməni dövlətçiliyi"ni dünya ictimaiyyətinə qəbul etdirmək üçün Azərbaycan xalqına mənsub olan maddi və mənəvi mədəniyyət nümunələrini UNESCO-nun Mədəni irs siyahısına daxil etməkdən də çəkinmirlər. Erməni şairi Yeğişe Çarents "bizim millətdə riyakarlıq ana bətnində ikən yaranır" deyərək öz millətinin anatomiyasının real təsvirini vermişdir.*

***Açar sözlər:*** *Qarabağ mədəniyyəti, çarizmin siyasəti, ermənilərin köçürülməsi, erməni saxtakarlığı, Qarabağın işğalı*

# Traces of Armenian fraud in the culture of Karabakh region of North Azerbaijan

***Abstract***

*The occupation of Northern Azerbaijan lands by the Russian Empire at the beginning of the 19th century, the relocation of Armenians to these territories, and the Russian-Armenian "solidarity" for more than two centuries pose serious problems to our people. Czarism, as a continuation of the Russification and Christianization policy in the region, allocated large funds for the education of the Armenians who were transferred to this area and placed them in administrative bodies in order to be able to control the area. Encouraged by this, as a result of groundless territorial claims of Armenians against Azerbaijani lands, including the Karabakh region, not only Azerbaijani Turks, but also their culture, have been and continue to be victims of Armenian aggression and fraud. Although S.N. Zelinski, A.Y. Khan-Agov and other Armenian researchers wrote that Armenians did not come to this area, Armenians started the process of falsifying architectural monuments created by Azerbaijani Turks over the centuries. After the resettlement, they deceive the world community by presenting Azerbaijani mughams with Armenian music and Azerbaijani carpets under the name of "Armenian carpet". The Armenians, who created a fake Armenian history by appropriating our cultural heritage, do not hesitate to include the material and spiritual culture belonging to the Azerbaijani people in the UNESCO list of cultural heritage in order to make the mythical "Armenian statehood" accepted by the world community. Armenian poet Yegish Charents gave a realistic description of the anatomy of his nation, saying that "hypocrisy in our nation is born in the womb."*

***Keywords:*** *Garabagh culture, tsarism policy, Armenians' relocation, Armenian fraud, occupation of Karabakh*

## Giriş

Azərbaycan Respublikası dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan ölkələrindən biridir. Lakin Azərbaycan xalqının tarixi taleyində baş verən hadisələr torpaqlarımızın zaman-zaman işğalı ilə nəticələnmiş, supergüclərin havadarlığı və dəstəyi ilə ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı olaraq həyata keçirdikləri etnik təmizləmə siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.

Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığının tarixi köklərinin üzə çıxarılması, Azərbaycan xalqının məruz qaldığı bu təcavüzkarlığın mahiyyətinin təhlil edilməsi, eləcə də ermənilərin Cənubi Qafqazın, o cümlədən Qarabağın aborigen əhalisi olmaması, onların nəinki Qarabağ ərazisinə, hətta azərbaycanlıların tarixi Qərbi Azərbaycan torpaqları olan indiki Ermənistan Respublikası ərazisinə sonradan (XIX əsrdən) gəldiklərinin dünya ictimaiyyətinə çatdırılması baxımından siyasi tariximiz qədər mədəniyyət tariximizin də araşdırılması böyük aktuallıq kəsb edir.

Erməni təcavüzkarlarının Qarabağ regionuna ərazi iddiaları heç də birdən-birə yaranmamışdır. Qafqazda siyasi və iqtisadi maraqlarını təmin etməyə can atan Rusiya hər vəchlə Cənubi Qafqazı ələ keçirməyə çalışırdı. Belə ki, türklərə qarşı mübarizədə ermənilərin ruslara yaxından kömək etməsi müqabilində I Pyotr onlara Xəzər dənizi - tarixi Azərbaycan torpaqlarında erməni dövləti yaradacağını və həmin ərazilərdə ermənilərin məskunlaşmasını təmin edəcəyini vəd etmişdi. Bu məqsədinə nail olmaq üçün I Pyotr (1682-1725) 1724-cü ildə ermənilərin Xəzəryanı ərazilərdə məskunlaşdırılması haqqında fərmanı ilə "xristianlıq naminə" erməni xalqını öz mərhəmətində saxlamaq və himayəyə götürmək qərarını vermişdi.[1] O, "Tamamilə məxfi qalsın" qrifli məşhur siyasi vəsiyyətində yazırdı ki, "Rusiyanın dünya ağalığı üçün paytaxtının İstanbul olması gərəkdir. Bizə qonşu olan dövlətlərdə - İran, Türkiyə və Azərbaycanda möhkəmlənməyimiz üçün, onları bir-birindən həmişə təcrid etməyimiz lazımdır. Ələ keçirdiyimiz müstəmləkələri həmişə əldə saxlamağımız üçün oraya sözəbaxan, xəyanətkar, riyakar, dələduz, tamahlar erməniləri köçürməyimiz lazımdır. Əraziyə köçürəcəyimiz ermənilərə vədlər verməli, dəstəkləməli, azərbaycanlılarla fitnə-fəsad, dava-dalaş salmalı, zəiflətməli və ağalıq etməliyik."[2] 1726-cı il

[1] Sobranie aktov, otnosyaşixsya k obozreniyu istorii armyanskogo naroda, Tip. Lazarevıx İnstituta vostoçnıx yazıkov, Moskva 1833 : 1, s. 11-12; 39. G.A. EZOV, Snoşenie Petra Velikogo s Armyanskim narodom, Tip. İmperatorskoy Rossiyskoy Akademii, SPb 1898, s. 392.
[2] İ.Çavçavadze, *Erməni Alimləri və Fəryad Edən Daşlar*, Azərbaycan, Bakı 1995. s. 120.

fevralın 22-də imperatriçə I Yekaterina (1725-1727) ermənilərin yüksək mərhəmətə və himayəyə layiq görülmələri haqqında fərman verərək,[3] Pyotrun ermənipərəst siyasətini davam etdirmişdir.

XIX yüzilin əvvəllərində Rusiya Şimali Azərbaycanın işğalına nail oldu. 1805-ci ildə Kürəkçay müqaviləsindən sonra ərazidə ermənilərdən bir vasitə kimi istifadə edən, müsəlman dövlətlərinə qısqanclıqla yanaşan, hətta Osmanlı İmperiyasının çökdürülməsində ermənilərin böüyük yardımına söykənən çar Rusiyası 1813-cü ildə Gülüstan, 1828-ci ildə isə Türkmənçay müqavilələrilə Azərbaycanın tarixi torpaqlarının ikiyə bölünməsinə nail oldu. 1822-ci ildə Qarabağ xanlığı tam ləğv edilərək Qarabağ əyaləti təsis edildi.[4]

İşğaldan sonra rusların özlərinə etnik-siyasi dayaq yaratmaq, əhalini xristianlaşdırmaq, Osmanlı imperiyası və Qacarlar dövlətinin sərhədlərində ermənilərdən ibarət sədd yaratmaq üçün erməniləri kütləvi şəkildə strateji əhəmiyyətə malik İrəvan, Naxçıvan və Qarabağ bölgələrinə köçürməsinə başlanıldı.[5] 1828-1830-cu illərdə Şimali Azərbaycana, o cümlədən Qarabağa, rəsmi olaraq İrandan 40 min, Osmanlı imperiyasından 84 min (bəzi məlumatlarda 90 min), qeyri-rəsmi olaraq 200 mindən çox erməni köçürülmüşdür.[6]

Kütləvi köçürmələr nəticəsində, Şavrovun təbirincə desək, "ermənilər yaşamayan Yelizavetpol və İrəvan quberniyalarında" ermənilərin sayının süni olaraq artırılması əhalinin milli-etnik tərkibində və ərazinin idarəçilik sistemində ciddi dəyişikliyə səbəb oldu. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər, çar Rusiyasının himayəsi altında 1828-ci il martın 21-də I Nikolayın fərmanı ilə "Erməni vilayəti" adlandırılan süni inzibati bölgə yaradılmasına nail oldular. Bununla da, azərbaycanlıların əzəli torpaqlarından qovulmasının da bünövrəsi qoyuldu.

Rus çarının 1899-cu il aprelin 15-də, 1900-cü il dekabrın 22-də, 1904-cü ilin iyulunda təsdiq etdiyi qanunlarla Mərkəzi Rusiya ərazisindəki rus mənşəli, pravoslav dininə mənsub əhalinin imperiyanın cənubunda yerləşən zəngin gələcəyi olan Qara dəniz və Xəzər dənizi arasındakı müsəlman ərazilərinə köçürülməsinə icazə verildi. Həmçinin, 1896-1908-ci illərdə regiona daha 400 min erməni köçürələrək onların sayı 1mln 300 minə çatdırıldı.[7]

---

[3]Sobranie aktov, otnosyaşixsya k obozreniyu istorii armyanskogo naroda,, 1 : 43.

[4] *Aktı, Sobrannıe Kavkazskoy Arxeografiçeskoy Komissiey: [V 12 Tomax],* T. 4, Tip. Glavnogo Upravleniya Namestnika Kavkazskogo, Tiflis 1870., Dok. 37, 1447, s. 37-43, 953.

[5] M. Mardjanlı, *Ariyanstvo. Rossiya. Kavkaz.* Flinta, Moskva 2011, s. 71.

[6] N.Şavrov *Novaya Ugroza Russkomu Delu V Zakavkaze: Predstoyaşaya Rasprodaja Mugani İnorodtsam*. Baku, 1990, s. 63.

[7] N. Şavrov, *a.g.e.*, s. 64

Münbit torpaqların ruslara və ermənilərə verilməsi bölgələrin kənd təsərrüfatının müxtəlif növlərinə görə bölünməsi[8], vergilərin artırılması külli miqdarda ödənc və sələmlər yerli əhali olan Azərbaycan türklərinin sosial vəziyyətini daha da pisləşdirdi. Bununla da Rusiya imperiyası ermənilərin yardımı ilə Qarabağ regionunun idarə olunmasını təmin edərək "ərazinin tədricən xristianlaşdırılması" xülyasını gerçəkləşdirməyə can atmışdı.

**1-Çar Rusiyasının müstəmləkəçi təhsil siyasətinin Qarabağ regionuna təsiri**

Regionda ruslaşdırma və xristianlaşdırma, eləcədə əraziyə nəzarət edə bilmək siyasətinin davamı olaraq çar Rusiyası bu əraziyə köçürülmüş ermənilərin təhsil almaları üçün böyük vəsait ayırmış, azərbaycanlı əhalinin isə təhsil almasının qarşısını müxtəlif yollarla almağa çalışırdı. Əhməd Ağaoğlu öz xatirələrində Şuşanın erməni məhəlləsində yerləşən, cəmisi beş nəfər türk şagirdin oxuduğu rus gimnaziyasında keçən təhsil illəri ilə əlaqədar qeyd edirdi ki, "tənəffüslərdə biz, beş türk çocuğu cəld tərpənib arxamızı divara dirəməyi qənimət bilirdik. Yüzlərlə erməni çocuğu qəflətən ustümüzə hücum edirdi. Muqavimət göstərmək fikrinə düşəndə yumruq, qapaz, təpik altında bizi əzirdilər. Bəzən gizlində sözu bir yerə qoyub üzərimizə böhtan atır, hamısı üzümüzə şahid durur, bızə haqsız yerə cəza verdirirdilər. ... Son sinfə qədər türklərdən yalnız mən tab gətirə bildim".[9]

Ermənilərə hər cür ixtiyar verən çar hökuməti müxtəlif bürokratik əngəllər nəticəsində də azərbaycanlıların təhsil almasının qarşısını alırdı ki, bura hakim dairələr tərəfindən azərbaycanlı əhalinin uşaqlarına doğum haqqında sənədin verilməsindəki çətinliklər də daxil idi. Əraziyə nəzarət edə bilmək üçün erməni məmurlarının hazırlanması sahəsində ermənilərin təhsilinə xüsusi diqqət ayrılmasının nəticəsi olaraq Qarabağ ərazisində fəaliyyət göstərən məktəblərdə ermənilərin böyük say üstünlüyü diqqəti cəlb edir. Şuşa qəza məktəbində 1858-ci ilin məlumatına görə təhsil alan şagirdlərin 15-i azərbaycanlı, 13-ü rus, 180-i erməni, 2-i fars idi.[10]

| Şuşada fəaliyyət göstərən məktəblər[11] |
|---|

[8] G. Gasanov, *İz İstorii Severoazerbaydjanskoy Derevni V Kontse Xıx-Natsale Xx Vv.* Taxsil, Baku 2007, s.107.
[9] Ə. Ağaoğlu, *Üç Mədəniyyət*, Mütərcim, Bakı 2006, s.3.
[10] H. M.Əhmədov, *Seçilmiş pedaqoji əsərləri*. C. 1., Elm və ABU nəşriyyatı, Bakı 2001, s. 113.
[11] Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 77, siyahı № 1, iş № 102, vərəq – 19-19 arx.;
Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 311, siyahı № 1, iş № 30, vərəq – 47-49 arx.;
*Jurnal Ministerstva narodnogo prosveşeniya [v 381 tomax],* c. 251 Sovremennaya letopis, Tip. B.S.Balaşeva, SPb 1887, s. 88-89 (700-701);
*Jurnal Ministerstva narodnogo prosveşeniya [v 381 tomax],* c. 269 Sovremennaya letopis, Tip. B.S.Balaşeva, SPb 1890, s. 62 (348);

| il | Şəhər məktəbi | Realnı məktəbi | Mariinski qız məktəbi |
|---|---|---|---|

*Jurnal Ministerstva narodnogo prosveşeniya [v 381 tomax],* c. 275 Sovremennaya letopis, Tip. B.S.Balaşeva, SPb 1891, s. 21 (301);
*Jurnal Ministerstva narodnogo prosveşeniya: [v 381 tomax],* c. 316 Sovremennaya letopis, Tip. B.S.Balaşev i K°, SPb 1898, s. 53(699);
*Obzor Elizavetpolskoy gubernii za 1892 god: [1893-1915]*. Elizavetpol. gub. stat. kom., Tiflis 1893, s. 38;
*Obzor Elizavetpol skoy gubernii za 1898 god: [1893-1915]*. Elizavetpol. gub. stat. kom., Tiflis 1899, s. 51;
*Obzor Elisavetpolskoy gubernii za 1899 god: [1893-1915]*. Elizavetpol. gub. stat. kom., Tiflis 1900, s. 56;
*Obzor Elisavetpolskoy gubernii za 1908 god: [1893-1915]*. Elizavetpol. gub. stat. kom., Tiflis 1909, s. 31-32;
*Obzor Elisavetpolskoy gubernii za 1910 god: [1893-1915]*. Elizavetpol. gub. stat. kom., Tiflis 1912, s. 316, 318-319;
*Otçet o sostoyanii uçebnıx zavedeniy popeçitelya Kavkazskogo Uçebnogo Okruga za 1902 god, Statistiçeskaya svedeniya k otçetu o sostoyanii uçebnıx zavedeniy Kavkazskogo Uçebnogo Okruga v 1902 godu,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1903, s. 135, 362-363, 444;
*Otçet o sostoyanii uçebnıx zavedeniy popeçitelya Kavkazskogo Uçebnogo Okruga za 1904 god, Prilojenie, Statistiçeskaya svedeniya k otçetu o sostoyanii uçebnıx zavedeniy Kavkazskogo Uçebnogo Okruga v 1904 godu,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1905, s. 131, 358, 440;
*Otçet o sostoyanii uçebnıx zavedeniy popeçitelya Kavkazskogo Uçebnogo Okruga za 1907 god, Prilojenie, Statistiçeskaya svedeniya k otçetu o sostoyanii uçebnıx zavedeniy Kavkazskogo Uçebnogo Okruga v 1907 godu,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1908, s. 75, 324;
*Otçet o sostoyanii uçebnıx zavedeniy popeçitelya Kavkazskogo Uçebnogo Okruga za 1908 god, Kavkazskiy Uçebnıy okrug*. Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1909, s. 324, 366;
*Otçet o sostoyanii uçebnıx zavedeniy popeçitelya Kavkazskogo Uçebnogo Okruga za 1911 god, Prilojenie,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis *1912*, s. 80
*Otçet o sostoyanii uçebnıx zavedeniy popeçitelya Kavkazskogo Uçebnogo Okruga za 1912 god, Prilojenie,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1913, s. 65, 232, 258, 320.
*Otçet o sostoyanii uçebnıx zavedeniy popeçitelya Kavkazskogo Uçebnogo Okruga za 1913 god, Prilojenie,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1914, s. 68-69.
*Otçet popeçitelya Kavkazskogo Uçebnogo Okruga o sostoyanii uçebnıx zavedeniy za 1884 god, Prilojenie, Statistiçeskaya svedeniya k otçetu o sostoyanii uçebnıx zavedeniy Kavkazskogo Uçebnogo Okruga v 1884 godu,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1885, s. 98 (334);
*Otçet popeçitelya Kavkazskogo Uçebnogo Okruga o sostoyanii uçebnıx zavedeniy za 1885 god, Prilojenie, Statistiçeskaya svedeniya k otçetu o sostoyanii uçebnıx zavedeniy Kavkazskogo Uçebnogo Okruga v 1885 godu, Tiflis: Tip.kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaz,* 1886, s. 102, 198, 211-212;
*Otçet popeçitelya Kavkazskogo Uçebnogo Okruga o sostoyanii uçebnıx zavedeniy za 1890 god, Prilojenie, Statistiçeskaya svedeniya k otçetu o sostoyanii uçebnıx zavedeniy Kavkazskogo Uçebnogo Okruga v 1890 godu,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1891, s. 329, 519;
*Otçet popeçitelya Kavkazskogo Uçebnogo Okruga o sostoyanii uçebnıx zavedeniy za 1894 god, Statistiçeskaya svedeniya k otçetu o sostoyanii uçebnıx zavedeniy Kavkazskogo Uçebnogo Okruga v 1894 godu,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1895, s. 608, 623;
*Otçet popeçitelya Kavkazskogo Uçebnogo Okruga o sostoyanii uçebnıx zavedeniy za 1897 god, Statistiçeskaya svedeniya k otçetu o sostoyanii uçebnıx zavedeniy Kavkazskogo Uçebnogo Okruga v 1897 godu,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1898, s. 225, 323, 394;
*Otçet popeçitelya Kavkazskogo Uçebnogo Okruga o sostoyanii uçebnıx zavedeniy za 1898 god, Statistiçeskaya svedeniya k otçetu o sostoyanii uçebnıx zavedeniy Kavkazskogo Uçebnogo Okruga v 1898 godu,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1899, s. 135, 329, 394;
*Otçet popeçitelya Kavkazskogo Uçebnogo Okruga o sostoyanii uçebnıx zavedeniy za 1899 god, Prilojenie, Statistiçeskaya svedeniya k otçetu o sostoyanii uçebnıx zavedeniy Kavkazskogo Uçebnogo Okruga v 1899 godu,* Tip. kantselyarii Glavnonaçal stvuyuşago grajdan. çastyu na Kavkaze, Tiflis 1900, s. 135, 362-363, 444.

| | erməni | azərbaycanlı | erməni | azərbaycanlı | erməni | azərbaycanlı |
|---|---|---|---|---|---|---|
| **1884** | 257 | 32 | 160 | 89 | - | - |
| **1885** | 226 | 34 | 177 | 88 | - | - |
| **1890** | 145 | 36 | 231 | 35 | - | - |
| **1892** | 142 | 50 | 235 | 42 | - | - |
| **1894** | 133 | 41 | - | - | 118 | 0 |
| **1895** | 119 | 38 | - | - | - | - |
| **1897** | 129 | 33 | 243 | 51 | 249 | 2 |
| **1898** | 134 | 36 | 262 | 50 | 240 | 2 |
| **1899** | 126 | 48 | 272 | 56 | 259 | 4 |
| **1902** | 148 | 70 | 378 | 99 | 290 | 8 |
| **1904** | 145 | 74 | 361 | 86 | 279 | 10 |
| **1907** | - | - | 340 | 108 | 167 | 0 |
| **1908** | - | - | 315 | 104 | 194 | 4 |
| **1910** | 233 | 63 | 251 | 123 | - | - |
| **1911** | 268 | 69 | - | - | - | -- |
| **1912** | 225 | 56 | 302 | 122 | 240 | 7 |

Cədvəldən aydın görünür ki, Şuşada fəaliyyət göstərən məktəblərdə ermənilər azərbaycanlılara nisbətdə say üstünlüyünə malikdir. Hətta 1905-1906-cı illər erməni-müsəlman qarşıdurması, I dünya müharibəsi dövründə ermənilərin fəallaşması nəticəsində azərbaycanlıların sayında yenidən azalma müşahidə olunmuşdur. Çünki bu məktəblər əsasən ermənilər yaşayan ərazilərdə idi.

Nəinki, Qarbağ regionunda ümumiyyətlə İrəvan-Yelizavetpol müdiriyyətinin bütün məktəblərində ermənilər üstünlük təşkil edirdi.Hətta Qafqazdakı şəhər məktəblərinin 4-də ruslar, 5-də gürcülər, 13-də isə ermənilər üstünlük təşkil edirdilər.[12]

[12]*Jurnal Ministerstva narodnogo prosveşeniya [v 381 tomax],* c. 284 Sovremennaya letopis, Tip. B. S. Balaşeva, SPb 1892, s. 79 (635).

1881-ci ildə Şuşa real məktəbi açılarkən buraya 159 şagird qəbul edilmişdi ki, bunlardan yalnız 58 nəfəri azərbaycanlı idi.[13] Araşdırmalardan aydın olur ki, realnı məktəblərdə də sayca ruslar və ermənilər üstünlük təşkil edirdilər. Cədvəldən də aydın görünür ki, şəhər məktəbinə nisbətdə realnı məktəbdə ermənilərin azərbaycanlılara say nisbətində daha böyük və təəssüfedici fərq var idi. Ümumiyyətlə, ermənilər ən çox Şuşa realnı məktəbində təhsil alırdı ki, bunun əsas səbəbi məktəbin texniki təcrübi biliklər verməsi idi.

Şuşa Mariinski qız məktəbində də təhsil alan şagirdlərin milli və dini mənsubiyyətinə nəzər saldıqda burada da təəssüfedici nəticəylə qarşılaşırıq: 1894-cü ildə 120 şagirddən 118-i erməni, 2-si rus olan məktəbdə bir nəfər də olsa azərbaycanlı təhsil almırdı. Ən çox azərbaycanlı sayına 1904-cü ildə[14] rast gəlinsə də erməni-müsəlman qarşıdurması nəticəsində bu say yenidən sıfra enmişdi. 1908-ci ildə yenidən 4 azərbaycanlı şagirdin təhsil alması rəqəmlərdə əks olunur. 1912-ci ildə burada təhsil alan ermənilərin sayı kəskin artsa da, azərbaycanlıların sayında cüzi artma nəzərə çarpır.[15]

Cənubi Qafqaz Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin təşkili, seminariyada müəllim kadrlarının hazırlığı kənd məktəblərinin təşkilinə və tədricən genişlənməsinə rəvac verdi. Digər məktəblərdə təhsilin yüksək olması, kəndlərdən uzaqda yerləşməsi, silki xarakter daşıması, bir çox bürokratik əngəllərin mövcudluğu baxımından kənd məktəbləri xalq arasında dünyəvi təhsili yayan, demək olar ki, yeganə təhsil müəssisələri olmuşdur. Lakin kəndlərdə təsis edilmiş məktəblərdə azərbaycanlıların təhsil almaması üçün bəzi kəndlərin erməni əhalisi kənd məktəblərində tədrisin başlamasına təzyiq göstərmiş, onun əvəzinə erməni kilsə-məhəllə məktəbinin açılmasını tələb etmişdilər.[16]

XIX əsrdə məscid və dövlət məktəblərindən başqa ayrı-ayrı şəxslərin açdığı xüsusi məktəblər də diqqəti cəlb edir. Bu tip məktəblərin sayı baxımından Qarabağ bölgəsi xüsusilə fərqlənirdi.Qarabağ regionunda təsis edilən rus-Azərbaycan məktəbləri ilə yanaşı rus-erməni

[13] H.M. Əhmədov, *Xıx Əsr Azərbaycan Məktəbi*, Təhsil, Bakı 2006, s. 328-329;
*Sirkulyar Po Upravleniyu Kavkazskim Uçebnım Okrugom*, Tiflis 1881, № 11, S.560;
*Kavkazskiy Kalendar Na 1876 God,* Otdel 2, Çast 2, V Tip. Kants. Namestnika Kavkazkogo, Tiflis 1875, S. 69 (303).
[14] *Otçet Kuo Za 1904 God*, s. 443.
[15] *Otçet Kuo Za 1907 God*, s. 388.
[16]*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 406, Siyahı № 1, İş № 96, Vərəq – 7-7 Arx.;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 406, siyahı № 1, iş № 131, vərəq – 21-21 arx.

məktəbləri də mövcud idi.[17][18][19][20][21] Qaynaqlardan əldə etdiyimiz tam olmayan məlumatlara görə, regionda 5 rus-erməni məktəbi təsis edilmişdir.

Qarabağ ərazisində xüsusi məktəblər tipinə daxil olan yalnız erməni dilini tədris edən məktəblər də təsis edilmişdir ki, bu məktəblər əsasən ermənilərin kütləvi şəkildə köçürülərək məskunlaşdırıldığı Qarabağın maarif mərkəzi olan Şuşada təsis edilmişdir. Müxtəlif arxiv materiallarından əldə etdiyimiz məlumatlara görə 1851-1914-cü illərdə regionda[22] tədrisi erməni dilində olan 20 məktəb açılmışdır. Onlardan biri Çiləbörd kənd cəmiyyətinin Yenikənd kəndində, qalanları isə Şuşa şəhərində idi. Lakin azərbaycanlılara məxsus belə məktəblərin açılması üçün verilən təkliflərin böyük qismi müxtəlif bəhanələrlə rədd edilirdi.

Daha bir əhəmiyyətli fakt isə odur ki, məktəbin açılması üçün müraciət edilərkən "yerli dillərin tədris ediləcəyi" ifadəsini qeyd edən erməni məktəbdarlar məktəb açılarkən ancaq erməni dilinin tədrisinə və erməni uşaqların təhsil almasına imkan yaratmışdılar.

---

[17] *Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 8, vərəq – 6 - 6 arx.;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 365, vərəq – 2;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 18, vərəq – 1-2, 6;
*Aktı, sobrannıe Kavkazskoy Arxeografiçeskoy Komissiey: [v 12 tomax]* , T. 11, Tip. Glavnogo upravleniya Namestnika Kavkazskogo, Tiflis 1888, dok.773, s.725.

[18] *Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 146, vərəq – 3-3 arx., 5-6.

[19] *Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 408, vərəq – 1-2, 4-5 arx.

[20] *Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 648, vərəq – 3-3arx.

[21] *Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 686, vərəq – 1-3.

[22] *Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 8, vərəq – 5 - 5 arx.; 7 - 8 arx.;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 297, vərəq – 3;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 299, vərəq – 3;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 303, vərəq – 1-1 arx., 14-15;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 330, vərəq – 1-1 arx., 6-6 arx.;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 348, vərəq – 10;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 365, vərəq – 2-2 arx.;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 371, vərəq – 7-7 arx.;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 389, vərəq – 1;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 395, vərəq – 2-3, 7-7 arx.;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 408, vərəq – 1-5 arx.;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 506, vərəq – 2;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 7a, vərəq – 1-2 arx., 7.
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 11, vərəq – 1, 3-3 arx.
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 12, vərəq – 1--4.
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 13, vərəq – 1-1 arx.
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 15, vərəq – 1-1 arx.
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 16, vərəq – 2-4 arx.
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 21, vərəq – 4.
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 73, vərəq – 18.
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 77, vərəq – 1-4, 7.
*Aktı, sobrannıe Kavkazskoy Arxeografiçeskoy Komissiey: [v 12 tomax]* , T. 11, Tip. Glavnogo upravleniya Namestnika Kavkazskogo, Tiflis 1888, dok. 773, s. 725.

Ümumiyyətlə, tədqiqatlardan məlum olur ki, digər tip məktəblərdə olduğu kimi, Yelizavetpol, İrəvan və Bakı quberniyalarının azərbaycanlılara məxsus xüsusi məktəblərində təhsil alan şagirdlərin böyük qismi də erməni-qriqoryan dininə mənsub idi.[23] Bundan əlavə, mənbələrdə erməni xüsusi qız məktəblərinin də fəaliyyətinə rast gəlinir.[24]

Hətta təşkil olunmuş pedaqoji və metodik kurslarında təşkili və gedişində rus-erməni həmrəyliyinin şahidi oluruq. Qarabağ regionunundakı məktəblərin azərbaycanlı müəllimlərinin pedaqoji fəaliyyətini artırmaq üçün təşkil edilən kursların onların iştirakı üçün əlverişsiz olan vaxta salınması buna misaldır.Bu hal erməni məktəbinin müəllimlərinə kurslarda iştirak və erməni dilində sınaq dərsləri keçmək imkanı yaratdırdı.[25] Qarabağ regionunda təşkil edilmiş metodik və pedaqojikurs rəhbərlərinin və iştirakçılarının çox böyük qisminin rus və erməni olması[26] fikrimizi bir daha təsdiq edir.

**2-Azərbaycan musiqisi erməni saxtakarlığında**

Müasir dövrümüzdə ermənilər tərəfindən musiqi mədəniyyətimizə edilən təcavüzkarlıq və saxtalaşdırlma hallarının artması Azərbaycan və onun tərkib hissəsi olan Qarabağ musiqisinin dünyada tanıdılmasını vacib amil edir. Musiqi tariximizdə öz qədimliyi və özünəməxsusluğu ilə seçilən Qarabağ musiqi mədəniyyətində aşıq ifaçılığı, xanəndəlik və instrumental ifaçılıq sənəti mühüm yer tutur. Azərbaycan aşıq yaradıcılığından gürcü, erməni, Dağıstan aşıqları da bəhrələnmişlər. XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Azərbaycan dilində şeir qoşan aşıqların 400-dən çoxuyalnız erməni olduğu göstərilir. M.Nalbandyan özü də etiraf edirdi ki, bu aşıqları ancaq "...erməni ailəsində doğulduqları üçün erməni adlandırmaq mümkündür".[27] N. Nikifirov da Azərbaycan aşıq sənətinin ermənilər arasında geniş yayıldığını və erməni aşıqlarının öz nəğmələrini, əsasən Azərbaycan dilində yazıb oxuduqlarını qeyd edirdi.[28] Azərbaycan aşıq sənətinin çox geniş yayılması, hətta qonşu xalqların yaradıcılığına təsir etməsi Azərbaycan dilinin

---

[23]*Jurnal Ministerstva narodnogo prosveşeniya [v 381 tomax],* c. 255 Sovremennaya letopis, Tip. B.S.Balaşeva, SPb 1888, s. 34(378).
*Jurnal Ministerstva narodnogo prosveşeniya [v 381 tomax],* c. 266 Sovremennaya letopis, Tip. B.S.Balaşeva, SPb 1889, 94(798).
[24] *Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 356, vərəq – 2-8 arx.;
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 11, vərəq – 1-1 arx.
[25]*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 923, vərəq – 9 arx.
[26]*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 309, siyahı № 1, iş № 923, vərəq – 11-11 arx.
*Azərbaycan Respublikası Dövlət Tarix Arxivi:* Fond № 311, siyahı № 1, iş № 111, vərəq – 7-7 arx.
[27] Ozan aşıg yaradıcılığının inkişaf yolları. Bakı: Çaşıoğlu, 2013, s. 21.
[28] G.Namazov, *Ozan-aşıg sənətinin tarixi,* Elm və təhsil, Bakı 2013, s. 310.

o dövrdə Qafqazda və Yaxın Şərqdəki tarixi rolunu bir daha təsdiq edir, həmçinin erməni aşıqlarının aşıq sənəti ilə Azərbaycan dilində məşğul olmaları o dövrdə Azərbaycan dilinin zənginliyinin təsdiqi ilə bərabər erməni dilinin "yararsızlığının" da göstəricisidir.

